**İstifadəsi üzrə təlimat**
KOLDİSEPT nanoSİLVER
qulaq damcısı

**Tibbi vasitə.**

**Dərman vasitəsi deyildir**.

**Təsiredici maddələr:** Qliserin (Glycerin 30-45%), propilenqlikol (Propylene Glycol 20-40%), gümüş nanokolloidi (Silver nanocolloid 5-10%), mis nanokolloidi (Copper nanocolloid 20-30%), təmizlənmiş su (Purified water 15-20%)

**İstifadəsinə göstərişlər**
Qulaq damcıları şəklində istifadəyə buraxılan Koldisept nanoSilver tibbi vasitə istənilən çirkin yumşaldılması və xaric edilməsi məqsədi ilə xarici qulaq keçəcəyi kanalına yeritmək və eləcədə, dəri üzərində qoruyucu baryerin formalaşması hesabına bakterial və göbələk mənşəli infeksiyaların törətdikləri xarici qulaq keçəcəyi kanalının iltihabı zamanı nəzərdə tutulmuşdur.

Tərkibinə bakteriyaların və göbələklərin inkişafını məhdudlaşdıran və xarici qulaq keçəcəyinin müxtəlif etiologiyalı iltihabının müalicəsinə səbəb olan gümüş və mis nanohissəcikləri daxildir. Məhsulun istifadə şərtləri: fərdi təlabatlara müvafiq sistematik istifadə üçün nəzərdə tutulmuşdur.

*Texniki və funksional xarakteristikaları*

| *Parametrin adı* | *Təsviri* |
|---|---|
| *Məhsulun təsviri və quruluşu* | Qapaqlı və ilk açılmaya nəzarətli damcısalan flakonda maye. |
| *Dolma həcmi* | 15 ml |
| *Möhtəviyyatın təsviri* | Şəffaf və ya bir qədər bulanıq, ağdan yüngül sarımtıla qədər rəngli, içərisində görünən həll olunmayan hissəciklər olmayan homogen maye. |

**İstifadə qaydası və dozası**
*Dozalanma rejimi*
Qulaq damcıları şəklində istifadəyə buraxılan Koldisept nanoSilver tibbi vasitə – gündə 3 dəfə təyin olunur və iltihab simptomları aradan qalxdıqdan sonra, bir qayda olaraq, minimum ilk 3 gün müddətində istifadə edilir.
*İstifadə qaydası*
1. Flakon ehtiyatla (yaxşı olar ki, əllərin içərisində) qızdırılmalıdır.
2. Başı xəstə qulağın əks tərəfinə çevirmək və ya elə uzanmaq lazımdır ki, xəstə qulaq yuxarıya doğru olsun.
3. Xarici qulaq keçəcəyi kanalına 5 damcı maye daxil etmək (həkim tərəfindən digər dozalanma rejimi təyin edilmədiyi halda) və həmin vəziyyətdə 3-5 dəqiqə qalmaq lazımdır.

**Tibbi vasitənin istifadəsi ilə əlaqəli əlavə təsirlər, digər tibbi vasitələrlə və ya müxtəlif dərman preparatları ilə birlikdə istifadəsi**
Əlavə təsirlər barədə heç bir məlumat yoxdur.
Yüksək həssaslığa malik pasiyentlərdə allergiya simptomlarının meydana çıxması istisna edilmir. Allergiya simptomları meydana çıxdığı halda tibbi vasitənin istifadəsini dayandırmaq tələb olunur.
*İstifadəsi üzrə təlimatda qeyd olunmayan bütün əlavə effektlər, arzuolunmayan reaksiyalar, məhsulun digər dərman vasitələri ilə qarşılıqlı təsir xüsusiyyətləri, göstərilən tibbi vasitənin*

*istifadəsi zamanı pasiyentin həyatı və sağlamlığı üçün təhlükəli olan faktlar və vəziyyətlər barədə pasiyentin müalicə olunduğu ölkənin səlahiyyətli orqanına məlumat verilməlidir.*

**Əks göstərişlər**
- Komponentlərə qarşı fərdi dözümsüzlük;
- qulaq pərdəsinin perforasiyası (deşilməsi).

**Xüsusi göstərişlər və ehtiyat tədbirləri**
-Dozalayıcı damcısalanı xarici qulaq keçəcəyi kanalına həddindən artıq dərin daxil etmək olmaz;
-Gözlərin və ağız boşluğunun selikli qişalarına təsadüfən düşməsindən çəkinmək lazımdır;
-İstənilən narahatlılıqla əlaqəli simptomlar meydana çıxdığı halda, məhsulun istifadəsi dayandırılmalıdır;
-Hamilə qadınlara və 6 yaşa qədər uşaqlara tibbi məhsulu yalnız həkim nəzarəti altında istifadə etmək tövsiyə olunur.

**Buraxılış forması**
15 ml, qapaqlı və ilk açılmaya nəzarətli damcısalan plastik flakonda. 1 flakon içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır.

**Saxlanma şəraiti**
25° C-dən yuxarı olmayan temperaturda, quru və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Yararlılıq müddəti**
2 il.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**İstehsalçı**
ARKONA Qjeqoja Kalbarçik Stomatoloji Farmakologiya Laboratoriyası, Nasutuv 99C, 21-025 Nemtse, Polşa.

**Qablaşmanın üzərində qeyd olunan simvolların təsviri**

| | |
|---|---|
| | Yararlılıq müddəti: |
| LOT | Seriyası: |
| | İstifadəsi üzrə təlimatla tanış olmaq lazımdır |
| CE | Avropa standartlarına uyğunluq işarəsi |